# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli, 136 nömrəli qərarı ilə təsdiq edilmiş «İnzibati orqanların Təsnifatı»na əlavə və dəyişiklik edilməsi barədə

# Qərar № 75

***Bakı şəhəri, 30 aprel 2009-cu il***

«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli, 73 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli, 136 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009-cu il, № 1, maddələr 22, 32; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 16 fevral tarixli, 27 nömrəli və 16 aprel tarixli, 64 nömrəli qərarları) ilə təsdiq edilmiş «İnzibati orqanların Təsnifatı»na aşağıdakı məzmunda 19.1.8-ci bənd əlavə edilsin və 19.1.8-ci bənd müvafiq olaraq 19.1.9-cu bənd hesab edilsin:

*«19.1.8. Xüsusi Riskli Xilasetmə Xidməti».*

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***